DÜNYA

Husilər Ər-Riyad aeroportunu və neft zavodunu vurduqlarını deyirlər

Oktyabr 06, 2026



Səudiyyə Ərəbistanının dəstəklədiyi Yəmən hökumət qüvvələri Əl-Hazm yaxınlığında İranla müttəfiq olan husiləri ilə toqquşur

Yəməndə İranın dəstəklədiyi **"Ənsar Allah"** (husilər) hərəkatı Səudiyyə Ərəbistanının paytaxtı Ər-Riyaddakı beynəlxalq hava limanına, həmçinin neft emalı zavoduna və digər obyektlərə zərbələr endirdiyini bildirib. Bu hücumlar Yəmən hökumət qüvvələrinin ölkənin cənubunda husilərə qarşı əks-hücuma keçməsi xəbərləri fonunda baş verib. Digər tərəfdən, Türkiyə və Pakistan Səudiyyə Ərəbistanına hərbi yardım göstərilməsinə dair razılığa gəliblər.

Ər-Riyad hava limanı fəaliyyətini bir neçə saatlıq dayandırıb. Hər hansı ziyan barədə məlumat verilməyib. Amma Səudiyyə Ərəbistanı rəsmiləri husilərin digər iki hava limanına zərbələrindən üç nəfərin yaralandığını və infrastruktura ziyan dəydiyini açıqlayıblar.



BUNA DA BAX:

Türkiyə və Pakistan Səudiyyə Ərəbistanına ordu göndərir

Yəmən hökuməti husilərə qarşı uğur qazandığını bildirir

Yəmən hökumət qüvvələri oktyabrın 5-də Babül-Məndəb boğazına nəzarəti təmin etdiklərini bildirirlər. Səudiyyə Ərəbistanının güclü hava dəstəyi ilə İranın dəstəklədiyi husilərlə döyüşlər davam edir.

Yəmənin informasiya naziri **Müəmmər əl-İryani** "Reuters"ə bildirib ki, hökumət qüvvələri boğazın ən dar hissəsində yerləşən Dubab rayonu ətrafındakı mühüm mövqeləri, o cümlədən uçuş-enmə zolağını ələ keçiriblər. Ərazidəki husi qüvvələrinin təcrid olunduğu bildirilir.

Hökumətdəki digər bir mənbə yaxınlıqdakı hərbi bazada döyüşlərin hələ davam etdiyini bildirib. Husilər isə hökumət qüvvələrinin irəliləməsi barədə xəbərləri təkzib ediblər.

Digər cəbhələrdə isə husilərin Taiz şəhəri ətrafında irəliləməsi xəbərləri gəlir. Hökumətdəki hərbi mənbələrə görə, üsyançılar rəsmi qüvvələrin nəzarətində olan bu şəhəri faktiki mühasirəyə alıblar. Hökumətdə başqa mənbə isə strateji yollardan birinin kəsildiyi barədə xəbəri təkzib edib.

Husilər həmçinin xəbərdarlıq ediblər ki, **Səudiyyənin hava məkanı tezliklə "silahlı qüvvələrimizin əməliyyat meydanına çevriləcək".**

Husilər sentyabrda Qırmızı dəniz sahillərinin bir hissəsini ələ keçirəndən sonra Yəmən hökuməti Səudiyyə Ərəbistanının geniş hava dəstəyi ilə əks-hücuma başlayıb. Son döyüşlər nəticəsində təxminən 184 min insan didərgin düşüb. Qırmızı dəniz ilə Ədən körfəzini birləşdirən Babül-Məndəb boğazında gəmilərin hərəkətinə də təhlükə yaranıb.



Rəşad əl-Alimi

4 oktyabr

Yəmən husilərə qarşı genişmiqyaslı əməliyyat elan edib

Yəmən prezidenti **Rəşad əl-Alimi** oktyabrın 4-də İranın dəstəklədiyi husilərin nəzarətindəki bütün əraziləri geri almaq üçün genişmiqyaslı hərbi əməliyyatın başlanıldığını bəyan edib. Xəbəri "Reuters" yayıb.

Əl-Aliminin sözlərinə görə, hücum "ölkə terrorçu silahlıların hakimiyyətindən azad olunanadək" davam edəcək.

Bir neçə gün əvvəl Yəməndə ümumi səfərbərlik elan olunub. SABA dövlət xəbər agentliyi yazır ki, məqsəd "husilərin eskalasiyasını dayandırmaq, vətəndaşları qorumaq, respublika quruluşunu və konstitusion legitimliyi müdafiə etmək, dövlətin suverenliyini və ərazi bütövlüyünü təmin etməkdir. "Reuters" husilərə qarşı hücuma 100 mindən çox yəmənli hərbçinin cəlb olunduğunu bildirib.

Agentliyin mənbələrinə görə, Yəmən hakimiyyəti husilərə qarşı hücuma Səudiyyə Ərəbistanının dəstəyi ilə keçəcək. Hava əməliyyatlarına Səudiyyə Ərəbistanı, quru əməliyyatlarına isə Yəmən qüvvələri rəhbərlik edəcək.

Husilər ötən aydan fəallaşıblar. Onlar gözlənilmədən hücuma keçərək qısa müddətdə strateji əhəmiyyətli Babül-Məndəb boğazını və Qırmızı dəniz sahilinin 150 kilometrlik hissəsini ələ keçiriblər. Bu, onlara beynəlxalq gəmiçilik marşrutlarına və Yaxın Şərq

neftinin ixracına təzyiq göstərmək üçün yeni imkan yaradıb. Tehran Hörmüz boğazını bağladığından bu məsələ xüsusilə əhəmiyyətlidir.

Husilər 2014-cü ildən Yəmənin paytaxtı Sənaya və şimal-qərbdə əhalinin böyük hissəsinin yaşadığı geniş ərazilərə nəzarət edirlər. Bu illər ərzində onlar Səudiyyə Ərəbistanı, Birləşmiş Ərəb Əmirlikləri və onların Qərb müttəfiqlərinin çoxsaylı hücumlarına tab gətirib, İranın köməyi ilə silahlarını modernləşdiriblər. 2022-ci ildə atəşkəs razılaşdırılıb. Fevralda İranla başlanan müharibəyə cavab olaraq husilər bu il Səudiyyə Ərəbistanının gəmiçilik və neft infrastrukturuna hücumlara başlayıblar və bununla atəşkəs pozulub.

Buna da bax:

Yəməndə münaqişənin təsirləri regionun hüdudlarını aşır

Husilər Səudiyyə Ərəbistanına dəniz embarqosu elan edib

Supergüclərin kabusu – Ucuz dronlar nəhəng orduları necə dayandırdı

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur